*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 2* *ISSN 2663-4368*
*Səhifə: 15-21* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.2.15*

# Yəhya Kamal bəyatlı şeirlərində İstanbul: bir mədəniyyət aynası

**Jalə Əliyeva**
Filologiya elmləri doktoru, professor
Milli Məclisin deputatı,
Ailə, qadın, uşaq məsələləri komitəsinin sədr müavini

**Annotasiya:** Yəhya Kamal Bəyatlı XX əsr Türk şeirinin ən görkəmli nümayəndələrindən biri hesab edilir. Şeirlərində İstanbula olan dərin sevgi və heyranlıq onun əsərlərinin özəlliyini təşkil edir. İstanbul Yəhya Kamalın şeirlərində, sadəcə, bir şəhər deyil, eyni zamanda, bir mədəniyyətin, bir tarixin simvolu olaraq qarşımıza çıxır. Yəhya Kamal İstanbulu Osmanlı İmperiyasının paytaxtı kimi görür və şəhərin tarixi, mədəni irsinə böyük əhəmiyyət verir. Şeirlərində İstanbulun keçmişinə olan həsrət və heyranlığını dilə gətirir. Xüsusilə, Osmanlı dövrünə aid məscidlər, türbələr, saraylar və digər tarixi tikililər onun şeirlərində tez-tez təsvir və tərənnüm obyektinə çevrilir. Yəhya Kamal İstanbulun tarixi və mədəni irsinin qorunmasının vacib olduğuna inanır və bu mövzuda həssaslıq göstərir.
Məqalədə XX yüzil Türkiyə ədəbiyyatının əsas aparıcı simalarından olan Yəhya Kamal Bəyatlının İstanbula həsr olunmuş şeirləri incələnir. Araşdırma Türkiyə ədəbiyyatını, onun müəyyən bir dönəmdəki ideya axınını və s. öyrənməklə yanaşı, Azərbaycan ədəbiyyatı baxımından da əhəmiyyətlidir. Əvvəla, İstanbul Şərq və Qərb mədəniyyətlərinin qovuşduğu bir məkan kimi dəyərlidir, digər tərəfdən isə Azərbaycan ədəbiyyatında da ayrı-ayrı şəhərlərə həsr edilmiş poetik nümunələr yetərincədir və gələcəkdə bu mövzudakı əsərlərin qarşılıqlı müqayisəli təhlili də poeziyamızın mövzu istiqamətlərinin aydın mənzərəsini yaratmaq üçün gərəkli ola bilər.
Araşdırma zamanı mətnlər üzərində iş aparılmış, hermenevtik tədqiqat üsulunun imkanlarından istifadə edilmişdir. Bundan başqa, tarixi-müqayisəli, induktiv və deduktiv metodlardan da faydalanmışıq.
**Açar sözlər:** Yəhya Kamal, İstanbul, şəhər, tarix, mədəniyyət, şeir

**Məqalə tarixçəsi:** göndərilib – 23.10.2025; qəbul edilib – 17.11.2025

## Istanbul in the poems of Yahya Kemal bayatlı: a mirror of culture

**Jale Aliyeva**

**Abstract:** Yahya Kemal Bayatlı is considered one of the most prominent representatives of 20th century Turkish poetry. The deep love and admiration for Istanbul in his poems is a characteristic feature of his works. Istanbul appears in Yahya Kemal's poems not just as a city, but also as a symbol of a culture and a history. Yahya Kemal represents Istanbul as the capital of the Ottoman Empire and attaches great importance to the city's historical and cultural heritage. In his poems, he expresses his longing and admiration for Istanbul's past. In particular, mosques, tombs, palaces and other historical buildings belonging to the Ottoman period often become objects of description and praise in his poems. Yahya Kemal believes that it is important to preserve the historical and cultural heritage of Istanbul and shows sensitivity on this issue.
The article analyzes the poems dedicated to Istanbul by Yahya Kemal Bayatlı, one of the main leading figures of 20th century Turkish literature.
The research is important not only for studying Turkish literature, its flow of ideas in a certain period, etc., but also for Azerbaijani literature. First of all, Istanbul is valuable as a place where Eastern and Western cultures meet, but on the other hand, there are enough poetic examples dedicated to individual cities in

Azerbaijani literature, and in the future, a mutual comparative analysis of works on this topic may be necessary to create a clear picture of the thematic directions of our poetry.
During the research, work was carried out on the texts, the possibilities of the hermeneutic research method were used. In addition, we also benefited from historical-comparative, inductive and deductive methods.
**Keywords:** Yahya Kemal, Istanbul, city, history, culture, poetry

**Article history:** received – 23.10.2025; accepted − 17.11.2025

## Giriş / *Introduction*

Türkiyə ədəbiyyatında Cümhuriyyət dövrü şeirinin ən görkəmli təmsilçilərindən olan Yəhya Kamal Bəyatlının yaradıcılığında divan ədəbiyyatı ilə yeni dövr poeziyası üzvi vəhdət halında birləşmişdir. Ədib poeziya ilə yanaşı, nəsr yaradıcılığı ilə də məşğul olmasına baxmayaraq, əsasən şair kimi tanınıb məşhurlaşmışdır. *"Yəhya Kamala görə, həyatda adına şeir deyilən, özünəxas özəllikləri olan bir ədəbi növ vardır. Onun mədəni isə bizim hislərimiz, hüzünlərimiz, şövqlərimiz və ehtiraslarımızdır"* [3, s. 473]. İlk şeiri 1918-ci ildə "Yeni Məcmuə" adlı jurnalda dərc olunan şairin dilinin zərafəti, dərin anlamlığı və ahəngi ilə seçilən bədii parçaları hər zaman oxucu və söz bilicilərinin diqqətində olsa da, sağlığında əsərlərini kitab halında nəşr etdirməmiş, hətta bu olay zamanla bir əfsanə halına gəlmiş, Yəhya Kamal bəzi vaxtlar bu əfsanəni pozub-pozmamaqda tərəddüd etmiş və nəhayət, kitab nəşr etdirmədən də maraq və sevgi görməyə davam etdiyini anlayınca bu fikirdən tamamilə daşınmışdır. Ancaq vəfatından bir il sonra, 7 noyabr 1959-cu ildə İstanbul Fetih Cəmiyyətinin iclasında Nihad Sami Banarlının təklifi ilə Yəhya Kamal İnstitutunun yaradılması və əsərlərinin nəşr olunması qərara alındıqdan sonra əsərləri kitab halında yayınlanmışdır.

Türkiyə ədəbiyyatında İstanbul, onun tarixi, ayrı-ayrı səmt və küçələri, insanları, xırda ticarət və sənətkarlıqla məşğul olan əməkçiləri və s. geniş işlənmiş mövzulardandır. "İstanbul şairi" ləqəbini alan şairlər də məşhurdur və onlardan əsasən Nədim, Baqi, Ətayi, Cəfər Çələbinin adları qeyd olunur [6, s. 158]. Bu sırada Yəhya Kamal Bəyatlının da xüsusi yeri vardır. Hətta Taylan Özgür Kavşut onu *"son divan şairi, ilk İstanbul şairi"* (Kavşut) adlandırmışdır. Ədalət naminə demək lazımdır ki, Yəhya Kamal adları çəkilən və çəkilməyən "İstanbul şairləri"ndən bir çox cəhətlərinə görə, ilk növbədə isə tarixə baxışlarının fərqli olmasına görə seçilir. O, gənc yaşlarından tarix elmi ilə yaxından maraqlanmış, Parisdə olduğu müddətdə arxiv və kitabxanalarda tarixə dair apardığı araşdırmalar bədii görüşlərinə də təsir etmişdir. Odur ki, Yəhya Kamal İstanbula, sadəcə, gözəl və füsunkar, bir dəfə görəni bir ömür boyunca cazibəsində saxlayan bir şəhər kimi deyil, həm də tarixin şahidi, mədəniyyət örnəyi kimi baxırdı. Şair İstanbulu vəsf edərkən, yalnız, bir təsvir mənzərəsi yaratmır, əslində, həm də tarix anladırdı. Yəhya Kamalın tarixi keçmişə və onu sevgi ilə öyrənməsinə ədibin yaradıcılığından bəhs edən tədqiqatçıların əksəriyyəti diqqət çəkmişlər. Məsələn, Aişə Hümeyra Akgün bu xüsusda yazır: "*Tarih konusundaki birikimini Albert Sorel'e borçlu olduğunu çeşitli vesilelerle dile getiren Yahya Kemal Beyatlı, ...şiirlerinde ortaya koyduğu tarih tutkusu ve sevgisiyle, dine olan yakınlığını, milliyetçi ve vatansever vasıflarını ön plana çıkaran çalışmaları arasında gösterildi"* [1].

**Əsas hissə / *Main part***

Yəhya Kamalın İstanbulu "tanıdan" şeirlərində mədəniyyətlərin qovuşduğu və bir-birinə dərindən nüfuz etdiyi bu qədim şəhəri küçəbəküçə gəzir, onun memarlıq abidələrini, təbiətini, ilin müxtəlif mövsümlərində dəyişən libasını, sosial həyatını görə bilirik. Şairin bu mövzudakı şeirlərindən biri də "Mihriyar"dır. Sevgilinin mavi gözlərində İstanbulun fəthini xatırlayan şair bu şeirdə eşq, gözəllik və zaman anlayışlarını özünəməxsus biçimdə yorumlamışdır. Şair özü kimi hər kəsi İstanbula heyran görmək istəyir:

*Hayrân olarak bakarsınız da*
*Hulyânızı fetheder bu hâli:*
*Beş yüz sene sonra karşınızda*
*İstanbul fethinin hayâli* [8, s. 72].

İstanbulun fəthinin gerçəkləşdiyi tarixdən beş yüz il keçmişdir. Lakin bu əsrarəngiz şəhər yaşanılan bütün keçmişin izlərini özündə daşıyır və bütün bunların əksi mavi gözlərində – dəniz sularında ayna kimi əks olunmuşdur. O, həm sevgilinin, həm də gözəlliyin təmsilçisidir. Bu şəhər bütün sehri və füsunkarlığı ilə şairə ilham verir, onun duyğularını riqqətə gətirir:

*Sîmâsı zaman zaman parıldar*
*Bir sahilin en güzel yerinde.*
*Hâlâ görünür geçen asırlar*
*Bir bir, koyu mâvi gözlerinde* [8, s. 72].

Yəhya Kamal şeirlərini fərqləndirən məzmun çalarlarından biri də keçmişə bəslədiyi həsrət duyğusudur. "Mihriyar" şeirində də bu həsrətin notları aydın hiss olunur. Şair keçmişin tarixi əhəmiyyətli olaylarını və itirilən dəyərləri məhz İstanbul obrazında tapır. Şairin "mihriyar"ı fiziki varlıqdan daha çox duyğu və hisslərlə qavranılan mənəvi varlıqdır. Çünki fiziki varlıqlar müvəqqətidir, eşq, ruhun gözəlliyi isə əbədidir. Keçib gedən zaman məfhumu fiziki varlıqları zahirən, mənəvi varlıqları ilə daxilən dəyişir.

Sadə və ahəngdar dilə üstünlük verən Yəhya Kamalın "Mihriyar" şeiri də bu özəlliyə sahibdir.

Yayınlanmış on üç kitabı ilə Türk ədəbiyyatına mizacının möhürünü vurmuş Yəhya Kamal Bəyatlı şeirlərində İstanbul – eyni zamanda Osmanlı kültürünün bir yadigarıdır və şair o əski mədəniyyətə qarşı həsrətini bu şəhərlə ovudur. O, İstanbulun sadəcə tarixi və mədəni mirasına deyil, təbii gözəlliklərinə də heyrandır. Boğaziçi, Haliç, Adalar, Üsküdar və digər yerlərin təbiət mənzərələri onun yaradıcılığında xüsusi anlam kəsb etmiş və şairin üslubuna xas incəliklə təsvir edilmişdir. İstanbul təbiətinin gözəllikləri sanki şairə və onun torpağı üzərində addımlayan hər kəsə hüzur verir, eyni zamanda da onu əfsunlayaraq özünə aşiq edir.

Yəhya Kamalın şeirlərində İstanbulun təkcə ayrı-ayrı səmt və küçələri deyil, şəhərin sakinləri, onların yaşam tərzi, məşğuliyyət sahələri də canlı boyalarla təsvir olunur. Mədəniyyətlərin qovuşduğu məkan olan İstanbul, eyni zamanda, müxtəlif inanclı insanların, fərqli millət və xalqların da bir araya gəldiyi, yaşadığı seçilmiş məkandır.

İstanbulun fəthi və onu gerçəkləşdirən qəhrəmanlar Yəhya Kamalın qələmində romantik vəsfini tapmışdır. O, *"İstanbulu fəth edən yeniçəriyə qəzəl" şeirində İstanbulu fəth edən bir ordunun gücünü və böyüklüyünü vəsf etmişdir"* [2, s. 29]. Şeir İstanbulun fəthinin tarixi əhəmiyyətini və bu hadisənin yaratdığı coşqunu izah edir. Fəth sadəcə bir şəhərin ələ keçirilməsi deyil, həm də bir dövrün bağlanıb yeni bir dövrün açılması kimi təsvir edilir. Şeirdə İstanbulun fəthini həyata keçirən yeniçəri əsgərlərinin cəsarəti, fədakarlığı və qəhrəmanlığı qürurla xatırlanır. Yeniçərilər vətən və inanc uğrunda canlarını fəda etməyə hazır qəhrəmanlar kimi təsvir edilir. Şeirdə fəth hadisəsi dini və milli duyğuların birləşdiyi bir zəfər kimi təqdim edilir. Yeniçərilərin döyüşərkən hiss etdikləri inanc və vətən sevgisi əlvan boyalarla təsvir olunur. Yəhya Kamal bu şeirlə Osmanlı İmperiyasının möhtəşəm keçmişinə olan həsrətini də dilə gətirir. Fəth keçmişin qəhrəmanlıqlarının bir simvolu kimi mənalandırılır. Şeir qəzəl formasında yazılmış olsa da, dastan üslubunda qələmə alınmışdır. Fəth hadisəsinin və yeniçərilərin qəhrəmanlıqlarının təsvirində epik şeir üslubu özünü göstərir.

*Düşsün çelengi Rum`un eğilsün ser-i Firenk*
*Vur Türk`ü gönderen yed-i takdir aşkına.*
*Son savletinle vur ki, açılsın bu surlar,*
*Fecr-i hücüm içindeki Takbir aşkına* [7, s. 28].

Yəhya Kamal bu şeirlə Türk millətinin qəhrəmanlıq ənənəsini və vətən sevgisini salnamələşdirmiş, İstanbulun fəthinin tarixi əhəmiyyətini və bu hadisənin Türk millətinin kimliyinə təsirlərini açıqlamış, insanlarda birlik və bərabərlik duyğularını alovlandırmağa çalışmışdır. "İstanbulu fəth edən yeniçəriyə qəzəl" şeiri Yəhya Kamal Bəyatlının öz millətinin tarixinə olan sevgisini və milli vətənpərvərlik duyğularını coşqun şəkildə ifadə etdiyi ölməz əsərlərindən biridir.

Yəhya Kamalın İstanbul şeirlərindən, xüsusilə onun fəthinə həsr etdiyi bədii örnəklərdən bəhs edərkən "İstanbulun fəthini görən Üsküdar" şeirini də xüsusi qeyd etmək lazımdır. Şair Üsküdarı qürurlandırır. Çünki onun gördüyünü başqa heç bir şəhər görməmişdir. Üsküdar – "o mutlu günün", o möhtəşəm fəthin şahidi olmuşdur.

*Üsküdar, bir ulu rü'yâyı görenler şehri!*
*Seni gıptayla hatırlar vatanın her şehri,*
*Hepsi der: "Hangi şehir görmüş onun*
*gördüğünü?*
*Bizim İstanbul'u fethettiğimiz mutlu günü!"*
*Elli üç gün ne mehâbetli temâşâ idi o!*
*Sanki halkın uyanık gördüğü rü'yâ idi o!*
*Şimdi beşyüz sene geçmiş o büyük hâtıradan;*
*Elli üç günde o hengâme görülmüş buradan;*
*Canlanır levhası hâlâ beşer ettikçe hayâl;*
[8, s.28]

Bu misralar yalnız bir şeir deyildir. O həm də Türkün şanlı tarixini silinməz izlərlə həkk edən bir tarixi salnamədir. Şeiri oxuduqca topların gurultusunu, tarixdə bənzəri olmayan "torpaqda gəmi yeridən" qəhrəman millətin və ordunun rəşadəti film lenti kimi göz önündə canlanır. Yəhya Kamal bir tarixi əsər qələmə alır:

*O zaman ortada, her sâniye, gerçek bir hâl.*
*Gürlemiş Topkapı' dan bir yeni şiddetle daha*
*Şanlı nâmıyle "Büyük Top" denilen ejderha.*
*Sarfedilmiş nice kol kuvveti gündüz ve gece,*
*Karadan sevkedilen yüz gemi geçmiş Halic' e;*
*Son günün cengi olurken, ne şafakmış o şafak,*
*Üsküdar, gözleri dolmuş, tepelerden bakarak,*
*Görmüş İstanbul'a yüzbin meleğin uçtuğunu;*
*Saklamış durmuş, asırlarca, hayâlinde bunu*
[8, s.28, 29].

Bu şeirdə Yəhya Kamal İstanbulun fəthinin tarixi əhəmiyyətini və Üsküdarın bu hadisədəki rolunu izah edir. Üsküdar fəth zamanı İstanbula baxan və bu tarixi ana şahidlik edən bir şəhər kimi təsvir edilir. Şeirdə İstanbulun mənəvi ab-havası və tarixi dəyəri vurğulanır, onun önəmli səmtlərindən biri olan Üsküdarı isə bütün gözəlliyi və ehtişamı ilə görürük.

Yəhya Kamalın digər İstanbul şeirlərində də, məsələn, "Üsküdar vəsfində qəzəl", "Üsküdarın dost işıqları" şeirlərində canlı təsvirlər yer almışdır. Ümumiyyətlə, Üsküdar Yəhya Kamalın İstanbula dair şeirlərində mühüm bir simvol kimi qarşımıza çıxır. Osmanlı dövründən etibarən mühüm bir yaşayış yeri olmuş, məscidləri, təkkələri və tarixi tikililəri ilə diqqət çəkən Üsküdar, eyni zamanda, İstanbulun Anadoluya açılan qapısıdır. Şair fərqli mədəniyyətlərin və inancların bir arada yaşadığı Üsküdarın Boğaz mənzərəsinə heyrandır. Onun şeirlərində Üsküdardan İstanbula baxışın misilsiz gözəlliyi dilə gətirilir. Üsküdarın sakit və rahat ab-havası Yəhya Kamalın nəzərlərində şəhərin səs-küyündən uzaqlaşmaq və keçmişlə əlaqə qurmaq üçün bir sığınacaq yeridir. Məhəllələrin, məscidlərin və küçələrin canlı təsvirləri oxucunu Üsküdara aparır. Yəhya Kamal Üsküdar'ı şeirlərində yaşadaraq bu məhəllənin tarixi və mədəni əhəmiyyətini gələcək nəsillərə ötürmüşdür.

Vətəndən uzaqda olduğu zamanlarda torpaq, yurd həsrəti şairin əsərlərində yenə İstanbulun havasının, səsinin özləmi ilə bədii ifadəsini tapmışdır. 1927-ci ildə Varşavada olarkən yazdığı "Qar musiqiləri" şeirində şair Türk millətinin tarixini, ruhunu, kültürünü təmsil edən İstanbulun səsini eşitməyin həsrətini qələmə alır:

*Zihnim bu şehirden, bu devirden çok uzakta,*
*Tanburi Cemil Bey çalıyor eski plâkta.*
*Birdenbire mes'ûdum işitmek hevesiyle,*
*Gönlüm dolu İstanbul'un en özlü sesiyle.*
*Sandım ki uzaklaştı yağan kar ve karanlık,*
*Uykumda bütün bir gece Körfezdeyim artık!..*
[8, s.46-47]

Şair real olaraq bir "İslav" şəhərindədir: monastrda ərğənun sədaları altında kilsə xoru oxuyur. Lakin şair olduğu məkandan çox uzaqda, bütün varlığı ilə bağlandığı, qəlbi ilə sevdiyi diyardadır: əski valdan Cəmil Bəyin çalğısı eşidilir. İstanbulun səsini eşidə biləcəyini ümid edən qərib şair xoşbəxtdir. Bu, bir qərib üçün elə bir səadətdir ki, real məkanda yağan qarı və mövcud qaranlığı uzaklaşdırır, onu məsud edir. Bütün gecəni yuxuda Körfəzdə keçirir.

Yəhya Kamal İstanbulun qədimliyinin qorunması, yaşadılması və gələcəyə ötürülməsini arzulayır. Çünki şairin düşüncəsinə görə, İstanbul Türk millətinin gələcəyi üçün önəmli bir dəyərdir.

Yəhya Kamalın şeirlərində İstanbul bir mədəniyyət aynasıdır. Ən məşhur şeirlərindən biri olan "Süleymaniyyədə bir bayram sabahı"nda şair yazır:

*Görebilsin diye sonsuzluğu her yerden iyi,*
*Seçmiş İstanbul'un ufkunda bu kudsî tepeyi;*
[8, s. 10]

Bir bayram səhəri bu möhtəşəm memarlıq abidəsinə axın edən insanların əhvali-ruhiyyəsi ilə başlayıb, onun inşasının tarixi, məqsədi, missiyası, şahidlik etdiyi tarixi olaylar və s. kimi məsələlərdən keçib yenidən yaşadığı günün gerçəkliyi ilə bitən şeir şairin Süleymaniyyə Camisində keçirdiyi dərin mənəvi ab-havanın və duyğuların təcəssümüdür. Yəhya Kamal Osmanlı İmperatorluğunun tarixi keçmişinə duyduğu heyranlığı dilə gətirir. Yüz illərə yoldaşlıq etmiş, İstanbul mənzərəsinin önəmli bir parçası olan Camini keçmişlə bu gün arasında bir bağ kimi mənalandıran şairə görə, bayram səhəri bu müqəddəs məkanda qılınan bayram namazı həm dini, həm də milli dəyərlərin qarşılıqlı nüfuzudur və birlik, bərabərlik, mənəvi təmizlənmə duyğularını simvolizə edir. Şeir bir bayram səhərinin mənəvi coşqusunu və hüzurunu əks etdirir.

"Süleymaniyyədə bir bayram sabahı" Yəhya Kamalın Türk millətinə vermək istədiyi ən önəmli mesajları ehtiva edir: millətin qədim keçmişindən qopmaması, əksinə öz milli, mədəni və dini ənənələrinə, tarixinə bağlı olması onun qüdrətini və şanını daha da artırır.

Yəhya Kamalın şeirlərində məkan bədii parçanın məzmunu, ideyası və poetik sənətkarlığı ilə üzvi vəhdətdədir və çox böyük əhəmiyyət daşıyır. *"Bir şiirde ya da bir şairde mekan egelerini aramak, bir şairin sıklıkla hangi mekanlarını kullandığını saptamak, bir şairin mekana nasıl baktığını sorgulamak da; şiirde ahenk ögelerini aramanın ya da şiirde izlekleri takip etmenin sonucuna benzer kazanımlar ortaya koyacaktır"* [9, s. 680].

Şairin İstanbula həsr olunmuş şeirləri içərisində "Bir başqa təpədən" əsəri xüsusi yer tutur. O, İstanbula könül taxtında oturmuş bir sevgili kimi aşiqdir. Yəhya Kamal İstanbulu səmt-səmt, küçə-küçə görmür. Onu bütöv olaraq görür, hiss edir və elə bütünlüyü ilə də sevir. Şairin İstanbulu dünyanın heç bir şəhəri ilə müqayisə oluna, qarşılaşdırıla bilməz…

*Sana dün bir tepeden baktım azîz İstanbul!*
*Görmedim gezmediğim, sevmediğim hiç bir yer.*
*Ömrüm oldukça, gönül tahtıma keyfince kurul!*
*Sâde bir semtini sevmek bile bir ömre değer.*
*Nice revnaklı şehirler görülür dünyâda,*
*Lakin efsunlu güzellikleri sensin yaratan.*
*Yaşamıştır derim, en hoş ve uzun rü'yâda*
*Sende çok yıl yaşıyan, sende ölen, sende yatan*
[8, s. 21].

"Bir başqa təpədən" şeiri Yəhya Kamalın İstanbula olan dərin sevgisini və heyranlığını ən açıq şəkildə ifadə etdiyi əsərlərindən biridir. Şair İstanbulun misilsiz gözəlliklərinə bir təpədən tamaşa edərkən şəhərin tarixi və təbii zənginliklərinə heyran qalır. Şeirdə İstanbulun məhəllələrinin belə bir ömür, bir insan həyatı qədər dəyərli olduğu vurğulanır, İstanbulun sehrli gözəlliyi və şəhərin insan ruhuna verdiyi rahatlıq hissi oxucuya çatdırılır.

Yəhya Kamalın şeirləri, xüsusilə də İstanbulu tərif edən bədii örnəkləri təkcə ədəbiyyat, söz nümunəsi deyil. Özünün lirizmi, ahəngi ilə birlikdə tarix, mədəniyyət aynasıdır. Odur ki, şairin əsərləri dar bir prizmadan deyil, geniş baxış açısından təhlil edilməlidir. Gencay Zavotçunun da yazdığı kimi, *"Şiirinin, bu şiirin mayasındaki mûsikî, engin tarih kültürü ve geçmişe olan saygınlıkla birlikte değerlendirildiğinde daha bir anlam kazanacağını söyleyebiliriz"* [10, s. 138].

"Bədriyədə misralar" şeirində şair üçün İstanbulun nə qədər dəyərli olduğu bütün çılpaqlığı ilə görünür. Şair, bir həyata yenidən gəlmək mümkün olsaydı, ruhlar kainata açılıb səmada istədikləri kimi məskən tuta bilsəydilər, tale mənə dönüb bir ulduzu malikanə versəydi, ona belə cavab verərdim, deyir:

*Bîgâne kalır o iltifâta,*
*İstanbul'a dönmek isterim ben* [8, s. 65].

Yəhya Kamalın "İstanbul üfüqdəydi", "İstanbulun o yerləri", "Ərənköyündə bahar", "Ox" və s. kimi digər şeirləri də İstanbula olan dərin sevgi və heyranlığını dilə gətirdiyi, şəhərin tarixi, mədəni və təbii gözəlliklərini təriflədiyi əhəmiyyətli əsərlərdir. "İstanbul üfüqdəydi" şeirində şair İstanbula olan sevgi və heyranlığını özünəməxsus tərzdə ifadə edir. O, uzun bir yolçuluqdan gəmi ilə vətənə qayıdır.

*Gurbetten, uzun yolculuk etmiş, dönüyordum.*
*İstanbul ufukta'ydı…* [8, s. 69]

Lakin o əfsunkar şəhər hələ üfüqdə gözlə görünməzdən öncə şairin ona həsrət qəlbində görünür. Həm də bütün silueti, min bir çizgisi ilə, təpələri-sahilləri ilə, gecələri-gündüzləri ilə... Qürbətdə keçirdiyi uzun illər boyunca İstanbulu xəyallarında canlandırmaq şairi artıq yormuşdur, onun beynində artıq xəyal qurmağa yer qalmamışdır. Şair artıq bu gözəlliyi bir gerçəklik kimi görmək istəyir.

*İstanbul'a artık bu dönüş son dönüş olsun.*
*Son yıllarım artık*
*Geçsin o tahayyüllerimin çerçevesinde*
[8, s. 70].

Şairin indi taledən yalnız bir umacağı vardır: səltənət iqliminə bənzəyən bu şəhərdə sevgilisi ilə bərabər səhhətli bir ömür sürmək…

Bu şeirdə də İstanbulu ruhu olan canlı varlıq kimi görürük. Şeirdə İstanbulun hər guşəsinin ayrı bir gözəllik və məna daşıdığı vurğulanır.

"İstanbulun o yerləri" şeirində də qürbətdə olan şair bir zaman sevgilisi ilə gəzdiyi "aşkın şeref diyarı" (eşqin şərəf diyarı) olan İstanbulun küçələrini, "kıyılarını" (sahillərini) xəyalında canlandırır, arzulayır və həmin yerləri qəlbində yaşatdığını söyləyir.

## Nəticə / *Conclusion*

Yəhya Kamal Bəyatlı şeirlərində İstanbulu bir mədəniyyətin aynası kimi əks etdirmişdir. İstanbula olan dərin sevgi və heyranlıq onun əsərlərinin ən bariz xüsusiyyətidir. Yəhya Kamal İstanbulun tarixi, mədəni və təbii gözəlliklərini, ayrı-ayrı səmtlərini, insanlarını, kiçik sənətkarlarını və onların həyat tərzini şeirlərində canlı şəkildə təsvir edərək oxucularına unudulmaz bir İstanbul portreti təqdim etmişdir. Şair İstanbulun tarixi və mədəni mirasına böyük dəyər verir və şəhərin məscidləri, sarayları, həmçinin gidər memarlıq abidələrini şeirlərində yaşatmağa çalışır. İstanbulun Osmanlı İmperiyasının paytaxtı olaraq daşıdığı əhəmiyyəti və o dövrün mədəni zənginliklərini vurğulayır. İstanbulun təbii və tarixi gözəlliklərinin bir arada olmasının şəhərə misilsiz bir özəllik qatdığını ifadə edir. Keçmişin dəyərlərinin və gözəlliklərinin itməsindən duyduğu kədəri ifadə edir. Yəhya Kamalın şeirlərində İstanbul Türk millətinin ruhunu, tarixini və mədəniyyətini təmsil edən bir simvoldur.

## Ədəbiyyat / *References*


1. Akgün, Aişe Hümeyra. (2024). Şiirlerini milli üslupla söyleyen tefekkür şairi: Yahya Kemal Beyatlı / https://www.aa.com.tr/tr/portre/siirlerini-milli-uslupla-soyleyen-tefekkur-sairi-yahya-kemal-beyatli/3380424
2. Aktan, Bilal. (2006). Yahya Kemal Beyatlı'nın Şiirlerinde Dil ve Ahenk. / Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi. Sayı, 14. – s. 25-34.
3. Çandır, Kazım. (2023). Yahya Kemal'in tenkide dair görüşleri. RumeliDE Dil ve Edebiyat Araştırmaları Dergisi, (Ö13), 470-485.

4. Kavşut, Taylan Özgür. Son Divan Şairi, İlk İstanbul Şairi: Yahya Kemal Beyatlı.
5. https://www.academia.edu/1277465/Son_Divan_Şairi_İlk_İstanbul_Şairi_Yahya_Kemal_ Beyatlı
6. Öztürk, Dinçer. (2020). Cumhuriyet Şiirine Yön Veren Şair: Yahya Kemal Beyatlı. Iğdır Üniversitesi Sosyal Bilimler Dergisi Sayı: 24, Ekim. – s. 147-162.
7. Yahya Kemal Beyatlı. (1962). Eski Şiirin Rüzgarıyle. İstanbul: Yahya Kemal Enstitüsü ve İstanbul Fetih Cemiyeti Neşriyatı.
8. Yahya Kemal Beyatlı. (1974). Kendi Gök Kubbemiz. İstanbul: Yahya Kemal Enstitüsü ve İstanbul Fetih Cemiyeti Neşriyatı.
9. Yivli, Oktay. (2009). Yahya Kemal`ın Şiirinde Mekan. Türk Dili: Dil ve Edebiyat Dergisi. Cilt: XCVII, Sayı 696, Aralık. – s. 680-694.
10. Zavotçu, Gencay. (2003). Yahya Kemal Beyatlı'nın Neo-klasik Şiirleri. Kocaeli Üniversitesi Sosyal Bilimler Dergisi(6), 137-143.

## Стамбул в стихах Яхьи Камала баятли: зеркало культуры

**Жаля Алиева**

**Резюме:** Яхья Кемаль Баятлы считается одним из самых ярких представителей турецкой поэзии XX века. Особенностью его произведений является глубокая любовь и восхищение Стамбулом в его стихах. В стихах Яхьи Камаля Стамбул – не просто город, но и символ культуры и истории. Яхья Кемаль видит Стамбул столицей Османской империи и придает большое значение историческому и культурному наследию города. В своих стихах он выражает тоску и восхищение прошлым Стамбула. В частности, объектом описания и восхваления в его стихах часто становятся мечети, гробницы, дворцы и другие исторические постройки, относящиеся к османскому периоду. Яхья Кемаль считает, что важно защищать историческое и культурное наследие Стамбула, и проявляет в этом вопросе деликатность.

В статье рассматриваются посвященные Стамбулу стихотворения Яхьи Кемаля Баятлы, одного из крупнейших деятелей турецкой литературы XX века.

В исследовании рассматривается турецкая литература, течение ее идей в определенный период и т. д. Помимо изучения, это важно и с точки зрения азербайджанской литературы. В первую очередь Стамбул ценен как место встречи восточной и западной культур, а с другой стороны, в азербайджанской литературе достаточно поэтических примеров, посвященных отдельным городам, и в будущем может потребоваться взаимный сравнительный анализ произведений на эту тему для создания четкого представления о тематических направлениях нашей поэзии.

В ходе исследования проводилась работа над текстами, использовались возможности герменевтического метода исследования. Кроме того, мы воспользовались историко-сравнительным, индуктивным и дедуктивным методами.

**Ключевые слова:** Яхья Кемаль, Стамбул, город, история, культура, поэзия.